2. Allah başlanğıc (beda'a) keyfiyyetine malikdir. (Usuli-Kafi, cild I, seh. 283)

112. əl-İxlas

1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur);

2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!)

3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!)

4. Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"

3. Osman, Muaviye, Yezid kimi yaramazlara iqtidar bexş eden Allaha nece itaet etmek mumkundur? (Xomeyni, Keşf-ul-Asar, s. 107)

Alim gördüyünüz kimi etiraz edir ki, bu 3 nəfər Allah yanında xeyirli insanlardı.

4. İmamlar meleklere, resullara ve nebilere verilmiş bütün elmleri exz etmişdirler. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 255)

1. Mələklərə verilən elm İmamlara verilmemishdir. Məsələn: əl-Bəqərə 30

(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tərifler dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara:) " Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.

Gördüyünüz kimi Mələklər Allah ilə danışmaq elminə malikdilər. Biz sizə bir çox ayətlər misal gətirə bilərik ki, Mələklərə verilən elm İmamlara verilməmişdi.

5. İmamlar ne vaxt öleceklerini evvelceden bilirler, bele ki, onlar ancaq öz istekleri ile ölürler. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I,

seh. 258)

Loğman 34

Həqiqətən, o saatı ancaq Allah bilir. Yağışı göydən O yağdırır, bətnlərdə olanı O bilir. Heç kəs səhər nə kəsb edəcəyini, heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, biləndir, xəbərdardır!

6. İmamlar keçmişde baş vermişleri ve gelecekde baş verecekleri bilirler, heç bir şey onlardan gizli deyil. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 260)

əl-Kəhf 26

(Ya Rəsulum!) De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək ancaq Ona məxsusdur. O, hər şeyi necə gözəl görür, necə də yaxşı eşidir! Onların (yer və göy əhlinin) Allahdan başqa heç bir hamisi yoxdur. O, heç kəsi öz hökmünə (səltənətinə) şərik etməz!" (Çünki Allahın heç bir şərikə ehtiyacı yoxdur!)

7. İmamlar, yazıldığı dilden aslı olmayaraq yazılmış bütün kitabların ehtivasından xeberdardırlar. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 260)

Ali İmran 7

(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.

Gördüyünüz kimi bu sözlərin (əlif , lam , mim) mənasını Allahdan başqa heç kim bilmir.

8. Heç kim Qur'an hökmlerine imamlar qeder tabe olmamişdir, çünki imamlar Qur'an elminin cemine malikdirler. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 227)

Belə çıxır ki Peyğəmbərimiz (s.ə.v) Imamlar qədər Qurana tabe olmamışdı. Halbu ki, Quran Məhəmməd Peyğəmbər (s.ə.v)-ə nazil olmuşdur. Necəki Allah deyir.

əl-Hicr 87

(Ya Rəsulum!) Biz sənə (hər namazda oxunub) təkrarlanan yeddi ayəni (Fatihə surəsini) və (böyük) əzəmətli Quranı verdik.

9. İndiki mövcud olan Qur'anın tam ve nöqsansız olduğunu deyen adam yalançıdır. Çünki tam ve nöqsansız Qur'an Ali ibn Abu Talibin Qur'ani idi. (Nuri Tibri, Fasl-ul-Xitab fi tehrifi kitab Rabb-ul-Erbab, seh. 4)

əl-Hicr 9

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!"

ət- Tövbə 32

Onlar Allahın nurunu (dəlillərini, islam dinini, Quranı) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər

10. Münafiqler (ye'ni Sehabeler) Qur'andan bir çox ayeni çıxarıblar. (İhticaci-Tibri, s. 382)

ər- Kəhf 1

Həmd olsun O Allaha ki, Kitabı (Quranı mənasında və sözlərində) heç bir əyriliyə (yanlışlığa və ziddiyyətə) yol vermədən Öz bəndəsinə (Muhəmmədə) nazil etdi!

əl-Əhzab 62

Allahın (onlardan) öncə gəlib-getmişlər (münafiqlər) haqqında qayda-qanunu belədir. Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən!

Əbəsə 13-14

13Bu Quran Allah dərgahında) çox möhtərəm (mötəbər) səhifələrdə -
14(Qədir-qiyməti) yüksək (şanı uca), tərtəmiz səhifələrdədir (Şeytan onlara toxuna bilməz).

11. İmam Mehdi zühur edeceyi vaxt özü ile esl ve nöqsansiz Qur'anı getirecekdir. (Huseyn Nacafi, Ahsan-ul-Maqal, s. 336).

Fussilət 42

Nə öncə, nə də sonra batil ona yol tapa bilməz (Şeytan onun bir sözünü, bir hərfini belə dəyişə bilməz). O, hikmət sahibi, şükrə (tərifə) layiq olan (bütün işləri bəyənilən Allah) tərəfindən nazil edilmişdir

12. Peyğemberlerin elametleri imamlara keçmişdir. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 231)

1. Musa (əs) – mın dənizi aralaması
2. İsa (əs)- mın Allahin izni ilə ölüləri diriltməsi
3. Məhəmməd (s.ə.v) –in ayı iki yerə bölməsi
Daha bir neçə Peyğəmbərlərin möcüzələrini gətirə bilərdik.

13. Bütün yerüzü İmamlara mexsusdur. (Yaqub Kuleyni, Usuli-Kafi, cild I, seh. 407)

əl- Ənam 12
De: “Göylərdə və yerlərdə olanlar kimindir?” De: “Allahındır!”

14. Ne bele Allaha ne de xelifesi Abu Bekir olan Allah Resuluna inanmaq mümkün deyil. (Envar-ul-Nemaniyye, seh. 278)
Ali- İmran 32

Söylə: “Allaha və Peyğəmbərə (Onun Peyğəmbərinə) itaət edin! Əgər üz döndərərsinizsə, şübhəsiz ki, Allah da kafirləri (haqdan üz çevirənləri) sevməz!”

15. Ali ibn Abu Talibin qapısında bütün peyğemberler birer dilençidir. (Talib Huseyn Qarpalvi, Xilqat-ul-Nuraniyye, seh. 201)

Sizcə bütün ümmətlərə mərhəmət olaraq göndərilən Allah Rəsulu , Ali ibn Abu Talibinin qapısında dilənçi ola
bilərmi.
Bu alimlər bu sözləri ilə Peyğəmbəri incidirlər.Görün Allah Peyğəmbəri incidənlər barəsində nə deyir.
əl- Əhzab 57

Allahı və Onun Peyğəmbərini incidənlərə Allah dünyada və axirətdə lənət eləmiş (Öz rəhmətindən qovmuş) və onlar üçün həqarətli bir əzab hazırlamışdır!

16. Ali ibn Abu Talib demişdir: “Men evvelem, men axirem, men zahirem, men batinem ve men yerüzüne mirasçıyam. (Ricali-Kaşisi, s. 138)

əl-Hədid 3

Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir! (Allah Öz əzəli elmi və qüdrəti ilə hər şeyi görüb bildiyi halda, Özü görünməz, dərkolunmazdır. Allahın varlığı aşkar, mahiyyəti isə tamamilə gizlidir).

17. İmamlar Allahın üzüdür (simasıdır). (Yaqub Kuleyni, Usuli-Kafi, s. 83)

əl-İxlas 1-4

1.(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: “(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur);

4.Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!”